

Səndəki güclü iradəyə, sarsılmaz ruha əhsən! Tükənməz gücün, məğrurluğun isə tarixin sınaqlarından çıxmış mənəvi dəyərlərdən, torpağa sevgindən, yurduna, Vətəninə bağlılığından qaynaqlanır. Övladların bu qaynaqdan güc alır, vətənpərvər, torpaqsevər yetişir, döyüş meydanında igidlik, ölməzlik dastanı yazır...

# MƏĞRUR QADIN

GÜLNAR YUSİFQIZI

"Öncə Vətəndir!" – deyib irəli atılan oğullarımızın Vətən sevgisi, Vətən amalı bizim üçün misilsiz örnək, gələcək nəsillərə nümunə, tariximizin silinməz səhifəsidir. Belə mərd, igid oğulları böyüdüb boya-başa çatdıran, onları mübarizlik, vətənpərvərlik ruhunda tərbiyə edən isə, əlbəttə ki, müdriklik mücəssəməsi, ləyaqətin, mənəvi saflığın rəmzi olan qəhrəman Azərbaycan qadınlarıdır...

Azərbaycan qadını ailəsinə vəfası, ocağında böyütdüyü igidi, Vətəni uğrunda göstərdiyi şücaəti, cəsurluğu ilə xalqımıza həmişə başucalığı gətirib, qürur bəxş edib: adları tariximizin şanlı səhifələrinə qızıl hərflərlə həkk olunub. Onlar nəinki yaşadıqları dövlətdə, hətta onun hüdudlarından kənarda da yenilməz döyüşçü, bacarıqlı sərkərdə kimi ad-san qazanıblar. Tarixə dönək: Tomiris, Sara xatun, Möminə xatun, Qüteybə xatun kimi neçə-neçə qəhrəman qadınlarımız göstərdikləri hünər, tutduqları haqq yoluyla igidlərimizdən geri qalmamışlar. Və bu gün də həmin yolu davam etdirənlər saysız-hesabsızdır. Onlar hərb meydanında döyüşkənliyi, mübarizliyi ilə düşmənə qan uddurur, ağrılarını içinə gömüb şəhid verdiyi doğmalarını başıuca, məğrur qarşılayır, son mənzilə belə çiyinlərində yola salırlar. Uzağa getməyək, yaxın günlərimizə – II Qarabağ savaşına nəzər salaq. Bu ağır döyüşdə həyat yoldaşı, qardaşı, övladları ilə birgə yağılara qarşı vuruşan ana-bacılarımızı, ömür sirdaşının, qardaşının, oğlunun tabutunu çiynində son mənzilə yola salan Nargül, Çinarə kimi məğrur qadınlarımızı gördük. Onlar Vətən uğrunda şəhid olan doğmalarının tabutunu el-oba ilə birgə çiyinlərində daşıdılar, son mənzilə yola saldılar. Özü də bu ağır itki qarşısında əyilmədən, qürurlu bir tərzdə.

Nargül xanımın qardaşı və həyat yoldaşı, Çinarə xanımın isə ömür-gün yoldaşı şəhid oldu (hər üç igidimizə, eləcə də bütün şəhidlərimizə Allahdan rəhmət diləyirik). Nargülün, Çinarənin timsalında onlarca, yüzlərcə Azərbaycan xanımı, igidlər anası nə qədər mərd, mətanətli olduğunu bir daha sübuta yetirdi.

Bəli, analar anası, sən qürurlusan, vüqarlısan, əzəmətlisən! Bütün bu keyfiyyətlərinlə ailə ocağının çırağı, övladlarının pərvanəsi olduğunu nümayiş etdirdin. Bununla həm də dünyaya sübut etdin ki, müasir dövrdə yaşasaq da, Azərbaycan qadını istər mənəvi dəyərlər, istərsə də islami nöqteyi-nəzərdən ailəsinə, yoldaşına, el-obasına, vətəninə nə qədər bağlıdır. Zaman dəyişsə də, onun ləyaqəti, mərdliyi, cəsurluğu, iradəsi heç zaman dəyişə bilməz.

Sən Azərbaycan qadınının örnək götürə biləcəyi bir insana çevrildin.

Səndəki güclü iradəyə, sarsılmaz ruha əhsən! Tükənməz gücün, məğrurluğun isə tarixin sınaqlarından çıxmış mənəvi dəyərlərdən, torpağa sevgindən, yurduna, Vətəninə bağlılığından qaynaqlanır. Övladların bu qaynaqdan güc alır, vətənpərvər, torpaqsevər yetişir, döyüş meydanında igidlik, ölməzlik dastanı yazır. Ona görə borcluyuq həmişə sizə, analar, borcluyuq. Bu borcu ödəmək mümkünsüz, çox mümkünsüz. Bacardığımızsa önünüzdə dayanıb xoş sözlərlə qəlbinizi az da olsa ovundurmaq, şəninizə alqışlar ünvanlamaqdır.

Dünyaya örnək ləyaqətin, sarsılmaz ruhun, güclü iradən önündə bir daha baş əyir, əllərindən öpürük, Azərbaycan qadını. Bu çətin, təkbaşına həyat yolunda mübarizən mətin, inamın, ümidin tükənməz, iradən poladtək möhkəm olsun, Məğrur Qadın!